# Azərbaycanda aqrar sektora hərtərəfli dövlət dəstəyi artıq özünün real nəticələrini verir

## ***Prezident İlham Əliyev:*** *Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artmışdır, xüsusilə bitkiçilik hesabına. Bitkiçilik 25 faiz artmışdır*

*Son illərdə meydana çıxan yeni çağırışlar, ələlxüsus da BMT-nin bəyan etdiyi Minilliyin İnkişaf Məqsədlərində ərzaq təhlükəsizliyinin təmin edilməsinin gündəlikdə duran əsas məsələlərdən biri kimi müəyyənləşdirilməsi qlobal miqyasda aqrar sektorda istehsal imkanlarının genişləndirilməsinin aktuallığını daha da artırıb. Dünyada əhali artımının tələbatını qarşılamaq üçün qida məhsullarının istehsalı da adekvat şəkildə tənzimlənməlidir. Təsadüfi deyil ki, bir neçə gün əvvəl Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilən sosial-iqtisadi sahə ilə bağlı müşavirədəki çıxışında dövlət başçısı xüsusi olaraq vurğulayıb ki, kənd təsərrüfatı hər bir ölkə üçün önəmli sahədir.*



### BU İLİN ALTI AYI ƏRZİNDƏ DƏ AQRAR SEKTORDA UĞURLAR ƏLDƏ OLUNUB

Minilliyin İnkişaf Məqsədlərinə qoşulan respublikamızda da aqrar sektorun inkişafı strateyi məqsəd kimi qarşıya qoyulub. Hər şeydən əvvəl onu vurğulamaq lazımdır ki, əlverişli iqlim xüsusiyyətləri, tarixdən gələn ənənələr, satış bazarları ilə əhatə olunması respublikamızda aqrar sektorun cəlbediciliyini artırır. Ölkəmiz bu kimi üstünlüklərdən bəhrələnməklə aqrar sektorda istehsalı böyük həcmlərdə artırıb həm ərzaq məhsullarına olan daxili tələbatı qarşılamaq, həm də öz ixracını artıraraq əlavə valyuta qazanmağı hədəfləyib. Nəzərə alsaq ki, Azərbaycan əhalisinin təxminən 47 faizi bölgələrdə yaşayır, onda deyə bilərik ki, respublikamızda kənd təsərrüfatında aktivliyin artırılması və beləliklə də insanların məşğulluq və gəlir imkanlarının genişləndirilməsi həm də ciddi sosial əhəmiyyət daşıyır.

Bütün bu kimi amillər nəzərə alınmaqla son illərdə respublikamızda aqrar sektorun inkişafına dövlət tərəfindən güclü siyasi iradə göstərilir. Ölkəmizdə aqrar sektorda məhsuldarlığın artırılması məqsədilə həyata keçirilən tədbirlər sırasında islahatların önəmini ayrıca vurğulamaq lazımdır. Respublikamızda kənd təsərrüfatının geniş potensialından daha səmərəli istifadə etmək məqsədilə yeni islahatlar paketi elan olunub. Kənd təsərrüfatında da yeni islahatlar kursunun məqsədi ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün institusional potensialın gücləndirilməsindən, aqrar sahə üzrə dövlət tənzimlənməsinin effektivliyinin yüksəldilməsindən, biznes mühitinin yaxşılaşdırılmasından, kənd təsərrüfatı məhsullarının istehsal imkanlarının artırılmasından, bazar infrastrukturunun təkmilləşdirilməsindən və istehsalçıların bazara çıxışının asanlaşdırılmasını təmin etməkdən ibarətdir.

Bütövlükdə, ölkəmizdə aqrar sektorda istehsal imkanlarını daha da artırmağa hesablanan islahatların və yeni yanaşmaların əhatə dairəsi kifayət qədər genişdir. İslahatlar çərçivəsində fermerlərə xidmətlərin əlçatanlığını və keyfiyyətini artırmaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin rayon idarələrinin əsasında Dövlət Aqrar İnkişaf mərkəzləri yaradılıb. Bununla da keçmiş kənd təsərrüfatı idarələri inzibati strukturdan xidmət qurumlarına çevriliblər. Mərkəzlərdə "vahid pəncərə" prinsipinə uyğun olaraq, fermerlərə 70-ə yaxın xidmət göstərilir. Liziq fəaliyyəti ilə bağlı həyata keçirilən islahat nəticəsində bazarda azad və ədalətli rəqabət mühiti formalaşıb. Belə ki, texnika və damazlıq heyvan alışına tətbiq edilən güzəştlər bütün təchizatçı şirkətlərə şamil olunub. Müşavirədə vurğulandığı kimi, artıq bazarda tam liberallaşma mövcuddur. Belə ki, dövlət tərəfindən tətbiq edilən güzəştlər və subsidiyalar bütün təchizatçı şirkətlərə tətbiq edilir. Nəticədə texnikanın qiymətində təxminən 30 faiz ucuzlaşma baş verib. Fermerlərə subsidiyaların və güzəştli kreditlərin verilməsində şəffaflığı və çevikliyi təmin etmək məqsədilə ötən il Aqrar Kredit və İnkişaf Agentliyi yaradılıb. Müşavirədə çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, gübrələrlə əlaqədar liberallaşma gələn ildən tam həyata keçiriləcək. Gübrənin həm əlçatanlığı təmin ediləcək, həm də qiymətində kifayət qədər ucuzlaşma baş verəcək.

Fermerlərin qayğı və problemlərini daha yaxından dinləmək üçün bütün rayonlarda və nazirliyin aparatında Fermerlər Şuraları yaradılıb, Aqrar Könüllülər Hərəkatı formalaşdırılıb. Ölkədə Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin yaradılması və bu sistemin əhatə dairəsinin genişləndirilməsi təqdirəlayiq haldır. Bütün ölkə üzrə bu proses intensiv şəkildə genişlənir. Hazırda 300 mindən çox fermer elektron kənd təsərrüfatında qeydiyyatdan keçib.

Aqrar sektora belə hərtərəfli dövlət dəstəyi artıq özünün real nəticələrini verir. Son 6 ayda aqrar sektorda əldə olunan uğurlardan geniş bəhs edən Prezident İlham Əliyev deyib: **"Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artmışdır, xüsusilə bitkiçilik hesabına. Bitkiçilik 25 faiz artmışdır. Yəni, bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək".**

> *"Taxıl istehsalı 40 faiz artıb. Məhsuldarlıq da kifayət qədər yüksəkdir. Əvvəlki illərlə müqayisədə indi orta məhsuldarlıq 30 sentnerdən çoxdur. Ancaq elə təsərrüfatlar var ki, orada məhsuldarlıq 60 sentnerdir və ondan da çoxdur"*

> *"Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək"*

Deyilənlərin təsdiqi olaraq vurğulayaq ki, 2019-cu ilin birinci yarısında aqrar sektorun Ümumi Daxili Məhsulda payı 5,6 faizə çatıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-iyun aylarında ölkədə kartof istehsalı 10,3 faiz, tərəvəz istehsalı 13,8 faiz, meyvə və giləmeyvə istehsalı 21,1 faiz, bostan məhsulları istehsalı 37,5 faiz artıb. Cari ilin 6 ayı ərzində ölkədə 335,7 min ton kartof, 675,1 min ton tərəvəz, 125,2 min ton meyvə və giləmeyvə, 54,8 min ton bostan məhsulları istehsal olunub.

2019-cu ilin ilk yarısında ölkədə heyvandarlıq məhsullarının istehsalında da ciddi artım qeydə alınıb. Diri çəkidə ət istehsalı 3 faiz, süd istehsalı 2 faiz, yumurta istehsalı 4,5 faiz, yun istehsalı 0,8 faiz artıb. Yanvar-iyun aylarında ölkədə 252,5 ton diri çəkidə ət, 1037,2 ton süd, 926,9 milyon ədəd yumurta, 14,6 min ton yun istehsal olunub.

2019-cu ilin 6 ayı ərzində ölkədən 411,8 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları ixrac olunub. Kənd təsərrüfatı məhsullarının ixrac həcmi ötən ilin müvafiq dövrünə nəzərən 27,9 faiz artıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu ilin yanvar-iyun aylarında ölkədən meyvə ixracı 42,2 faiz artıb. Yanvar-iyun aylarında respublika üzrə 636,6 ton barama tədarük edilib ki, bu da keçən ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 24 faiz çoxdur. Prezident İlham Əliyev ayrı-ayrı pozisiyalar üzrə istehsalın artmasından məmnunluğunu bildirərək vurğulayıb ki, digər məhsulların istehsalı da artıb. Beləliklə, bostan məhsulları təxminən 40 faiz, meyvə 20 faizdən çox, barama 25 faiz, tərəvəz 14 faiz. Yəni ixracımız da artır və əlbəttə ki, növbəti illərdə biz bu istiqamətdə öz siyasətimizi apararaq özümüzü daha da böyük nəticələrə çatdıracağıq. Son yarım ildə aqrar sahədə əldə olunan uğurları rekord göstəricilər kimi səciyyələndirən dövlət başçısı deyib: **"Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu, aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək. Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir. Əsasən bitkiçilik sahəsində, heyvandarlıqda artım təxminən üç faizə yaxındır. Hesab edirəm, bu sahəyə daha da böyük diqqət göstərilməlidir ki, heyvandarlıq da əhəmiyyətli dərəcədə artsın".**

### MÜASİR YANAŞMA, KƏND TƏSƏRRÜFATININ ELMİ ƏSASLARLA İNKİŞAFI TAXILÇILIQDA MƏHSULDARLIĞI BÖYÜK DƏRƏCƏDƏ ARTIRIR

Son illərdə respublikamızın bölgələrində aqrar sektorun digər istiqamətləri kimi, ərzaq təminatının möhkəmləndirilməsində çox mühüm pozisiyalardan biri olan taxılçılığın inkişafı da diqqət mərkəzində saxlanılır, xüsusilə bu sahədə intensiv metodların tətbiqinə geniş meydan verilir və bu zaman qabaqcıl dünya təcrübəsi nəzərə alınır. Regionlarda taxılçılığın inkişafında Prezident İlham Əliyevin tapşırığına əsasən yaradılan iri fermer təsərrüfatlarının rolunu xüsusi qeyd etmək lazımdır. İri fermer təsərrüfatlarının yaradılması və digər dəstək tədbirlərinin görülməsi nəticəsində ölkədə taxıl istehsalı ilbəil artır. 2004-cü ildə respublikamızda cəmi 2 milyon ton taxıl yığıldığı halda, 2018-ci ildə bu rəqəm 3 milyon 200 min tona yüksəlib. İri fermer təsərrüfatlarında və aqroparklarda məhsuldarlıq daha yüksəkdir - hər hektar üzrə 50 sentnerə bərabərdir, bəzi yerlərdə isə daha yüksəkdir. Müqayisə üçün bildirək ki, dünya üzrə hər hektardan orta məhsuldarlıq 34 sentner, Avropa İttifaqı ölkələrində isə 53 sentner təşkil edir. Azərbaycan yeni yanaşmaları tətbiq etməklə iri fermer təsərrüfatlarında məhsuldarlığı 50 sentnerə çatdırmağa nail olub ki, bu da böyük uğurdur. Müşavirədə kənd təsərrüfatı naziri İnam Kərimovun verdiyi məlumata əsasən, cari təsərrüfat ilində respublikamızda 1 milyon 12 min hektarda taxıl əkini həyata keçirilib. Bunun 670 min hektarını buğda, 342 min hektarını isə arpa əkini təşkil edib. Həyata keçirilən operativ tədbirlər, o cümlədən dislokasiya sisteminin düzgün qurulması, xüsusilə də müasir avadanlıqlardan istifadə edilməsi, kombaynlara GPS qurğularının quraşdırılması nəticəsində bu il taxıl biçini 20 gün tez başa çatıb. Məhsuldarlıq da əvvəlki illərlə müqayisədə daha yüksəkdir. Belə ki, ötən ilə nisbətən hər hektardan təxminən 2 sentner daha çox məhsul əldə edilib. Məhsuldarlığın artmasına xüsusi diqqət çəkən Prezident İlham Əliyev **"Məndə olan məlumata görə, taxıl istehsalı 40 faiz artıb. Məhsuldarlıq da kifayət qədər yüksəkdir. Əvvəlki illərlə müqayisədə indi orta məhsuldarlıq 30 sentnerdən çoxdur. Ancaq elə təsərrüfatlar var ki, orada məhsuldarlıq 60 sentnerdir və ondan da çoxdur. Yəni, bu, onu göstərir ki, müasir yanaşma, kənd təsərrüfatının elmi əsaslarla inkişafı məhsuldarlığı böyük dərəcədə artırır və artıracaq",** - deyə vurğulayıb.

Bu məqamda onu da qeyd etmək yerinə düşər ki, ölkədə fəaliyyət göstərən taxıl istehsalçıları və emalçılarının təşəbbüsü, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərinin, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə "Azərbaycan Taxıl İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyi təsis olunub.

Mütəxəssislərin qənaətlərinə görə, taxıl istehsalı və emalı ilə məşğul olan sahibkarların fəaliyyətinin əlaqələndirilməsi, onlar arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə yaradılan Assosiasiyanın fəaliyyəti taxıl istehsalının və taxılçılıq məhsulları ilə özünütəminetmə səviyyəsinin artırılması baxımından əhəmiyyətli olacaq.

**Mübariz ABDULLAYEV**